AQRAR TƏDQİQATLAR MƏRKƏZİ

Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi

Kənd Təsərrüfatı və Ərzaq Məhsulları üzrə Dünya Bazarı Konyukturasına dair Qısa İcmal

İyun 2026

M ü n d ə r i c a t

FAO-nun qlobal ərzaq qiymətləri indeksinə dair hesabatı 2

Buğda üzrə dünya bazarı konyukturasına dair qısa icmal 3

Rusiya buğdasının ixrac qiyməti 6

Arpanın dünya bazarı qiymətinə dair qısa icmal 6

Düyünün dünya bazarı qiymətinə dair qısa icmal 8

Qarğıdalının dünya bazarı qiymətinə dair qısa icmal 9

Pambıq üzrə dünya bazarı konyukturasına dair qısa icmal 10

Pambığın dünya bazarı qiymətinə dair qısa icmal 11

Xam ipəyin dünya bazarı qiymətinə dair qısa icmal 12

Quru baramanın dünya bazarı qiymətinə dair qısa icmal 13

Günəbaxan yağının Avropa bazarı qiymətinə dair qısa icmal 14

Zeytun yağının dünya bazarı qiymətinə dair qısa icmal 15

Çayın dünya bazarı qiymətinə dair qısa icmal 16

Şəkərin dünya bazarı qiymətinə dair qısa icmal 17

Soyanın dünya bazarı qiymətinə dair qısa icmal 18

Mal ətinin dünya bazarı qiymətinə dair qısa icmal 19

Qoyun ətinin Avropa bazarı qiymətinə dair qısa icmal 20

Donuz ətinin Avropa bazarı qiymətinə dair qısa icmal 21

Quş ətinin dünya bazarı qiymətinə dair qısa icmal 22

Südün dünya bazarı qiymətinə dair qısa icmal 23

Gübrənin dünya bazarı qiymətinə dair qısa icmal 25


FAO-nun qlobal ərzaq qiymətləri indeksinə dair hesabatı

(FAO-nun 3 iyul 2026-ci il tarixli açıqlaması)


FAO-nun Ərzaq Qiymətləri İndeksi 2026-ci ilin iyun ayında əvvəlki aya nisbətən azalıb.

- **Qlobal Ərzaq Qiyməti İndeksi** 2026-ci ilin iyun ayında orta hesabla 130.1 bənd təşkil edib ki, bu da ayı ilə müqayisədə 0.5% (0.7 bənd) **az**, ötən ilin iyun ayı ilə müqayisədə isə 1.6% (2.0 bənd) **çoxdur.**
- **Ət Məhsullarının Qiymət İndeksi** iyun ayında orta hesabla 130.5 bənd təşkil edib ki, bu da əvvəlki ayla müqayisədə 0.6% (0.8 bənd) **az**, ötən ilin iyun ayı ilə müqayisədə isə 3.6% (8.5 bənd) **çoxdur.**
- **Süd Məhsullarının Qiymət İndeksi** iyun ayında orta hesabla 116.9 bənd təşkil edib ki, bu da əvvəlki ayla müqayisədə 1.8% (2.2 bənd), ötən ilin iyun ayı ilə müqayisədə isə 24.8% (38.6 bənd) **azdır.**
- **Taxıl Qiyməti İndeksi** iyun ayında orta hesabla 110.0 bənd təşkil edib ki, bu da əvvəlki ayla müqayisədə 3.7% (4.2 bənd) **az,** ötən ilin iyun ayı ilə müqayisədə isə 2.5% (2.7 bənd) **çoxdur**.
- **Bitki Yağlarının Qiymət İndeksi** iyun ayında orta hesabla 192.0 bənd təşkil edib ki, bu da əvvəlki ayla müqayisədə 3.8% (7.0 bənd), ötən ilin iyun ayı ilə müqayisədə isə 23.3% (36.3 bənd) **çoxdur**.
- **Şəkər Məhsullarının Qiymət İndeksi** iyun ayında orta hesabla 90.0 bənd təşkil edib ki, bu da əvvəlki ayla müqayisədə 5.4% (5.1 bənd)**,** ötən ilin iyun ayı ilə müqayisədə isə 13.1% (13.6 bənd) **azdır.**

FAO-nun ərzaq qiymətləri indeksi, illik (2014-2016-cı illər 100 götürülüb)



FAO-nun ərzaq qiymətləri indeksi, məhsullar üzrə, aylıq (2014-2016-cı illər 100 götürülüb)



Mənbə: http://www.fao.org/worldfoodsituation/foodpricesindex/en/

Buğda üzrə dünya bazarı konyukturasına dair qısa icmal

(ABŞ-ın Kənd Təsərrüfatı Nazirliyinin 10 iyul 2026-ci il tarixli hesabatı əsasında hazırlanıb)

- 2026/2027-cı məhsul ili üzrə qlobal buğda istehsalının 2025/2026-ci ilə nəzərən 24 milyon ton azalaraq 820 milyon ton olacağı proqnozlaşdırılır.

Dünya üzrə buğda bazarının tələb-təklif balansı, milyon ton


		2024/2025	2025/2026	2026/2027
TƏKLİF	İlin əvvəlinə qalıq	270	260	279
	İstehsal	800	844	820
	Cəmi təklif	1070	1104	1099
TİCARƏT	İdxal / İxrac	211	227	213
TƏLƏB	Ərzaq və toxum	653	656	664
	Yem	157	169	162
	Cəmi istifadə	810	825	826
İLİN SONUNA QALIQ (Qlobal buğda ehtiyatları)		260	279	273
DÜNYA ÜZRƏ EHTİYATLARIN İSTEHLAKA NİSBƏTİ, %		*32%*	*34%*	*33%*

Mənbə: *https://www.uswheat.org/market-information/supply-and-demand/*


- **Məcmu təklifin** həcminin 2026/2027-ci məhsul ilində 2025/2026-ci məhsul ili ilə müqayisədə 5 milyon ton (0.5%) **azalaraq** 1099 milyon ton səviyyəsinə **düşəcəyi** proqnozlaşdırılır.
- **Qlobal buğda ehtiyatları** həcminin 2026/2027-ci məhsul ilində 2025/2026-cı məhsul ili ilə müqayisədə 6 milyon ton (2.2%) **azalacağı** və 273 milyon tona **düşəcəyi** gözlənilir. Nəticədə dünya üzrə ehtiyatların istehlaka nisbəti göstəricisi 33% səviyyəsində olacaq.
- **Dünya buğda ticarətinin** 2026/2027-ci məhsul ilində əvvəlki məhsul ili ilə müqayisədə 6.2% (14 milyon ton) **artaraq** 213 milyon ton olacağı proqnozlaşdırılır.

- Ötən mövsümə nəzərən cari mövsümdə **əsas buğda ixracatçısı** olan ölkələrdə ilin **əvvəlinə olan qalıq** 2026/2027-cı məhsul ilində əvvəlki məhsul ili ilə müqayisədə 60 milyon tondan 75 milyon tona artaraq 15 milyon ton **çox**, **istehsal həcminin** isə 437 milyon tondan 389 milyon tona **azalaraq** 48 milyon ton **az** olacağı gözlənilir. Bununla da **əsas ixracatçı** ölkələr üzrə **ümumi təklif səviyyəsi** 2025/2026-cı məhsul ili ilə müqayisədə cari məhsul ilində 497 milyon tondan 464 milyon tona **azalaraq** 33 milyon ton **az** olacaq.
- **Çində ilin əvvəlinə olan qalıq** həcminin əvvəlki məhsul ili ilə müqayisədə 2026/2027-ci məhsul ilində 3.9% (5 milyon ton) **azalaraq** 123 milyon ton olacağı gözlənilir.
- **Qara dəniz regionu** ölkələri qrupu üzrə əvvəlki məhsul ilinə nəzərən 2026/2027-ci məhsul ilində **istehsal həcminin** 3.0% (4.4 milyon ton) **azalaraq** 143.9 milyon ton, **ixracın** isə 2.4% (1.8 milyon ton) **azalaraq** 74.6 milyon ton olacağı proqnozlaşdırılır.

Qara dəniz ölkələri qrupu üzrə icmal



Qara dəniz ölkələri qrupu üzrə ixrac




Mənbə: www.uswheat.org


Bu qrupda əsas istehsalçılar Rusiya, Ukrayna və Qazaxıstandır.

➢ **2026-ci ilin iyun ayında buğdanın qiyməti əvvəlki aya nəzərən 6.4% azalaraq 243 ABŞ dolları/ton səviyyəsində qərarlaşıb.**

Son 1 il ərzində buğdanın dünya birjalarında qiyməti, ABŞ dolları/ton




2022-2024-cü illər, 2024-cü və 2025-ci ilin dörd və 2026-cı ilin birinci və ikinci rübü ərzində buğdanın ABŞ bazarında qiyməti, ABŞ dolları/ton




Mənbə: *https://fpma.fao.org/giews/fpmat4/#/dashboard/tool/international*

Rusiya buğdasının ixrac qiyməti

➢ **Rusiya buğdasının ixrac qiyməti 2026-ci ilin iyun ayında əvvəlki aya nisbətən 2.4% azalaraq 237 ABŞ dolları/ton təşkil edib.**






Mənbə: *https://fpma.fao.org/giews/fpmat4/#/dashboard/tool/international*

Arpanın dünya bazarı qiymətinə dair qısa icmal

➢ **2026-ci ilin iyun ayında Avropa İttifaqı arpasının qiyməti əvvəlki ayla müqayisədə 3.4% azalaraq 231 ABŞ dolları/ton, Qara dəniz arpasının qiyməti isə 5.8% azalaraq 218 ABŞ dolları/ton səviyyəsində qərarlaşıb.**





Mənbə: *https://fpma.fao.org/giews/fpmat4/#/dashboard/home*

Düyünün dünya bazarı qiymətinə dair qısa icmal

➢ **2026-ci ilin iyun ayında düyünün qiyməti əvvəlki aya nisbətən 11.7% artaraq 469 ABŞ dolları/ton səviyyəsində qərarlaşıb.**







Mənbə*:* *https://www.worldbank.org/en/research/commodity-markets#1*

Qarğıdalının dünya bazarı qiymətinə dair qısa icmal

➢ **Qarğıdalının dünya bazarı qiyməti 2026-ci ilin iyun ayında əvvəlki aya nisbətən 8.8% azalaraq 197 ABŞ dolları səviyyəsində qərarlaşıb.**





Mənbə: *https://www.worldbank.org/en/research/commodity-markets#1*

Pambıq üzrə dünya bazarı konyukturasına dair qısa icmal

➢ **Dünya üzrə pambıq balansına əsasən, 2026/27-ci məhsul ilində pambıq istehsalının 2025/26-ci məhsul ili ilə müqayisədə 5.4% azalaraq 116.0 milyon ton olacağı proqnozlaşdırılır.**

Cədvəl 1. Dünya üzrə pambıq balansı (*Çin də daxil olmaqla*), milyon ton

	2022/2023	2023/2024	2024/2025	2025/2026	2026/27 May	2026/27 Iyun
İlin əvvəlinə qalıq	71.2	75.9	73.4	74.5	77.3	76.6
İstehsal	115.9	112.2	119.3	122.7	116.0	116.0
Təklif	187.1	188.1	192.8	197.2	193.3	192.7
Fabrik istehlakı	112.7	114.8	119.1	120.1	121.7	121.8
İlin sonuna qalıq	75.9	73.4	74.5	76.6	71.8	71.1
Qalıq/İstehlak nisbəti	*67.3%*	*64.0%*	*62.6%*	*63.8%*	*59.0%*	*58.4%*

Cədvəl 2. Çinin pambıq balansı, milyon ton

	2024/25	2025/26	2026/27 May	2026/27 Iyun
İlin əvvəlinə qalıq	36.7	34.8	36.7	36.6
İstehsal	32.0	35.8	33.5	33.5
İdxal	5.2	7.0	7.0	7.0
Təklif	73.9	77.6	77.2	77.1
Fabrik istehlakı	39.0	41.0	41.0	41.5
İstehlak	0.1	0.1	0.1	0.1
İlin sonuna qalıq	39.1	41.1	41.1	41.6
Qalıq/İstehlak nisbəti	*89.2%*	*89.0%*	*87.9%*	*85.4%*


Cədvəl 3. Çin istisna olmaqla dünya pambıq balansı, milyon ton


	2024/25	2025/26	2026/27 May	2026/27 Iyun
İlin əvvəlinə qalıq	36.7	39.7	40.6	40.1
İstehsal	87.3	86.9	82.5	82.5
Təklif	124.1	126.6	123.2	122.7
Fabrik istehlakı	80.1	79.1	80.7	80.3
Çinə ixrac	5.2	7.0	7.0	7.0
İstehlak	85.3	86.1	87.7	87.3
İlin sonuna qalıq	39.7	40.1	35.8	35.6
Qalıq/İstehlak nisbəti	*46.5%*	*46.5%*	*40.8%*	*40.8%*

Mənbə: *https://www.cottoninc.com/market-data/monthly-economic-newsletter/*

Pambığın dünya bazarı qiymətinə dair qısa icmal

➢ **2026-ci ilin iyun ayında pambığın 1 kiloqramının qiyməti (“A Index”) əvvəlki ayla müqayisədə 6.4% azalaraq 1.90 ABŞ dolları səviyyəsində qərarlaşıb.**







Mənbə: *https://www.worldbank.org/en/research/commodity-markets#1*

Xam ipəyin dünya bazarı qiymətinə dair qısa icmal

➢ **2026-ci ilin iyun ayında dünya bazarında xam ipəyin qiyməti əvvəlki aya nisbətən 1.7% azalaraq 65.6 min ABŞ dolları/ton səviyyəsində qərarlaşıb.**







Mənbə: *https://businessanalytiq.com/procurementanalytics/index/raw-silk-price-index/*

Quru baramanın dünya bazarı qiymətinə dair qısa icmal

➢ **2026-ci ilin iyun ayında dünya bazarında quru baramanın qiyməti əvvəlki aya nisbətən 3.9% artaraq tona 23.8 min ABŞ dolları səviyyəsində qərarlaşıb.**






Mənbə: https://businessanalytiq.com/procurementanalytics/index/dried-cocoons-price-index/

Günəbaxan yağının Avropa bazarı qiymətinə dair qısa icmal

➢ **2026-ci ilin iyun ayında günəbaxan yağının 1 tonunun qiyməti əvvəlki aya nisbətən 0.5% artaraq 1510 ABŞ dolları səviyyəsində qərarlaşıb.**







Mənbə: *https://www.worldbank.org/en/research/commodity-markets#1*

Zeytun yağının dünya bazarı qiymətinə dair qısa icmal

➢ **2026-ci ilin iyun ayında zeytun yağının 1 tonunun qiyməti əvvəlki aya nisbətən İtaliya bazarında 7.3% azalaraq 7090 ABŞ dolları, İspaniya və Yunanıstan bazarlarındada 5.7% və 9.1% azalaraq müvafiq olaraq 4627 ABŞ dolları və 4650 ABŞ dolları səviyyəsində qərarlaşıb.**






Mənbə: https://agridata.ec.europa.eu/extensions/DataPortal/prices.html

Çayın dünya bazarı qiymətinə dair qısa icmal

➢ **2026-ci ilin iyun ayında çayın 1 kiloqramının dünya bazarı qiyməti əvvəlki ayla müqayisədə 1.0% azalaraq 2.97 ABŞ dolları səviyyəsində qərarlaşıb.**






Mənbə: *https://www.worldbank.org/en/research/commodity-markets#1*

Şəkərin dünya bazarı qiymətinə dair qısa icmal

➢ **2026-ci ilin iyun ayında şəkərin dünya bazarı qiyməti əvvəlki aya nisbətdə 5.9% azalaraq 0.32 ABŞ dolları/kq səviyyəsində qərarlaşıb.**







Mənbə*:* *https://www.worldbank.org/en/research/commodity-markets#1*

Soyanın dünya bazarı qiymətinə dair qısa icmal

➢ **2026-ci ilin iyun ayında soyanın 1 tonunun qiyməti əvvəlki aya nisbətən 1.1% azalaraq 468 ABŞ dolları səviyyəsində qərarlaşıb.**







Mənbə*:* *https://www.worldbank.org/en/research/commodity-markets#1*

Mal ətinin dünya bazarı qiymətinə dair qısa icmal

➢ **2026-ci ilin iyun ayında mal ətinin 1 kiloqramının qiyməti əvvəlki aya nisbətdə 6.2% azalaraq 7.46 ABŞ dolları səviyyəsində qərarlaşıb.**







Mənbə: *https://www.worldbank.org/en/research/commodity-markets#1*

Qoyun ətinin Avropa bazarı qiymətinə dair qısa icmal

➢ **2026-ci ilin iyun ayında Avropa bazarında qoyun ətinin 1 kiloqramının orta qiyməti əvvəlki aya nisbətən 4.5% azalaraq 11.45 ABŞ dolları səviyyəsində qərarlaşıb.**







Mənbə: *https://agridata.ec.europa.eu/extensions/DataPortal/prices.html*

Donuz ətinin Avropa bazarı qiymətinə dair qısa icmal

➢ **2026-ci ilin iyun ayında donuz ətinin 1 kiloqramının Avropa bazarı qiyməti əvvəlki aya nisbətən 4.5% azalaraq 1.89 ABŞ dolları səviyyəsində qərarlaşıb.**







Mənbə: *https://agridata.ec.europa.eu/extensions/DataPortal/prices.html*

Quş ətinin dünya bazarı qiymətinə dair qısa icmal

➢ **2026-ci ilin iyun ayında ayında quş ətinin 1 kiloqramının dünya bazar qiyməti əvvəlki ayla müqayisədə 0.5% artaraq 3.46 ABŞ dolları səviyyəsində qərarlaşıb.**







Mənbə: *https://agridata.ec.europa.eu/extensions/DataPortal/prices.html*

Südün dünya bazarı qiymətinə dair qısa icmal


➢ **2026-ci ilin may ayında süd xammalının 1 tonunun fermadan satış qiyməti əvvəlki ayla müqayisədə ABŞ bazarında 2.7%, Yeni Zelandiya bazarında isə 1.0% artaraq və müvafiq olaraq 470 ABŞ dolları və 435 ABŞ dolları təşkil etmişdir. Avropa İttifaqı bazarında isə 2026-ci ilin iyun ayında süd xammalının 1 tonunun fermadan satış qiyməti 3.2% azalaraq 482 ABŞ dolları olub.**






Mənbə: *https://www.clal.it/en/index.php*

➢ **Quru südün 1 tonunun qiyməti 2026-ci ilin iyun ayında əvvəlki ayla müqayisədə ABŞ-da 3.3% azalaraq 5236 ABŞ dolları, Avropa İttifaqında isə 5.2% azalaraq 3704 ABŞ dolları olub.**






Mənbə: *https://www.clal.it/en/index.php*


Gübrənin dünya bazarı qiymətinə dair qısa icmal

➢ **2026-ci ilin iyun ayında fosfor gübrəsinin qiyməti əvvəlki aya nisbətən isə 3.1% artaraq 736 ABŞ dolları səviyyəsində, kalium (potassium-xlorid) gübrəsinin qiyməti 0.6% azalaraq və azot gübrəsinin (karbamit) qiyməti 41.2% azalaraq, müvafiq olaraq 403 ABŞ dolları və 453 ABŞ dolları səviyyəsində qərarlaşıb.**

Son 1 il ərzində gübrənin növlər üzrə dünya bazarında qiyməti, ABŞ dolları/ton



2023-2024-cü illər, 2024-cü və 2025-ci ilin dörd və 2026-cı ilin birinci və ikinci rübü ərzində gübrənin növlər üzrə dünya bazarında qiyməti, ABŞ dolları/ton



Mənbə: *https://www.worldbank.org/en/research/commodity-markets*

AQRAR TƏDQİQATLAR MƏRKƏZİ

Əlaqə:

(+994 12) 599-08-88

https://atm.gov.az/az/

https://agroeconomics.az/

info@atm.gov.az

Süleyman Vəzirov küçəsi, 91
AZ 1025 Bakı, Azərbaycan